UOT 331

*Teyyub Qəni oğlu ƏLİYEV*
*Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin dosenti*

*Şəms Teyyub qızı ƏLİYEVA*
*Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin dosenti*
*10.30546/4.71.73001.2024.022*

# İNSAN KAPİTALININ TOPLANMASI VƏ ONUN MÜASİR İQTİSADİYYATDA ROLU

*Xülasə*

**Tədqiqatın məqsədi** müasir şəraitdə insan kapitalının iqtisadiyyatda rolunun qiymətləndirilməsi və ondan daha səmərəli istifadə edilməsi üçün təkliflər hazırlamaqdır.

**Tədqiqatın metodologiyası-** sistemli yanaşma, ekspert metodu, kompleks təhlil metodları.

**Tədqiqatın nəticələri-** müasir iqtisadiyyat şəraitində insan kapitalının formalaşması və toplanması, onun iqtisadi inkişafın sürətləndirilməsində rolu təhlil edilmiş və insan kapitalından istifadənin yaxşılaşdırılması üçün müvafiq tövsiyələr verilmişdir.

**Tədqiqatın praktiki əhəmiyyəti** - tədqiqatın nəticələri və irəli sürülən təklif və tövsiyələr müəssisənin insan kapitalının keyfiyyətcə qiymətləndirilməsinə və mövcud insan resurslarından daha səmərəli istifadə etməyə imkan verə bilər.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – müasir iqtisadiyyat şəraitində insan kapitalının formalaşması və toplanması üçün müvafiq investisiya xərclərinin sərf edilməsinin zəruriliyi əsaslandırılır, iqtisadiyyatda insan kapitalından istifadənin konkret yolları göstərilir.

***Açar sözlər: insan kapitalının toplanması, iqtisadyyat, rol, təklf, istifadə.***

## *Giriş*

Həm şəxsi rifah, həm də bütövlükdə ölkə iqtisadiyyatının çiçəklənməsi insan kapitalından asılıdır. İstənilən resurs kimi insan kapitalı da arta və ya dəyərsizləşə bilər. Ona görə də, müasir şəraitdə insan amilinin əhəmiyyətinə xüsusi fikir verilməlidir. Bu baxımdan bütün iqtisadi hadisələrə və iqtisadi artım amillərinə yeni şəkildə, insan amili ilə bağlı yanaşmaq lazımdır.

Ölkə iqtisadiyyatının inkişafında insan kapitalının rolunun getdikcə artması iqtisadçılar arasında “insan kapitalı” anlayışına, yəni insanın yaradıcılıq qabiliyyətlərinə də marağı artırmaqdadır. Eyni zamanda, son zamanlar əksər müəssisələrdə bütün kapital növlərinin ən qiymətlisi kimi insan kapitalının toplanmasına böyük diqqət yetirirlər.

Müşahidələr göstərir ki, cəmiyyət artıq insan potensialının inkişaf səviyyəsi ilə sadəcə maraqlanmır, həm də getdikcə ondan asılı olduğu qənaətindədir. Artıq, demək olar ki, hamılıqla qəbul edilir ki, onsuz insanın intellektual qabiliyyətlərinin, yaradıcılıq bacarıqlarının və təşəbbüskarlığının ən çox tələb olunduğu innovativ iqtisadiyyatın normal fəaliyyəti mümkün deyildir.

Qeyd etmək lazımdır ki, hər hansı bir ölkənin toplanmış milli insan kapitalı onun əhalisinin həyat səviyyəsini və keyfiyyətini göstərir, eyni zamanda onun dünya bazarında rəqabət qabiliyyətinin müəyyənləşdirilməsində mühüm rol oynayır. Ona görə də, müvafiq insan kapitalının inkişafı və toplanması ehtiyacı həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan iqtisadiyyatlarda müasir iqtisadi artım üçün ilkin şərtdir.

Araşdırmalar göstərir ki, insan kapitalı və iqtisadi artım arasında güclü əlaqə vardır. İnsan kapitalı iqtisadi artıma təsir edir və insanların bilik və bacarıqlarını genişləndirməklə iqtisadiyyatın inkişafına kömək edə bilər.

İnsan kapitalının müasir iqtisadiyyatda oynadığı rolu, onun iqtisadi artıma necə təsir etdiyini müəyyən etmək üçün insan kapitalı anlayışının, mahiyyətinin aydınlaşdırılmasına, formalaşması və toplanması proseslərinin tədqiqinə ehtiyac vardır.

**İnsan kapitalı anlayışı və onun mahiyyəti**

“İnsan kapitalı” ifadəsi ilk dəfə Teodor Şults tərəfindən irəli sürülmüşdür. Onun davamçısı olan Qari Bekker kapitalın bu hissəsinə investisiyalar haqqında nəzəriyyəni əlavə etmiş və insan davranışına iqtisadi yanaşmanı inkişaf etdirməklə bu anlayışı genişləndirmişdir [3, səh.2].

Sonralar insan kapitalı anlayışı və onun mahiyyəti ilə bağlı müxtəlif fikirlər və mülahizələr irəli sürülmüş və bu proses davam etməkdədir. Amerikalı iqtisadçı Lester Karl Turov insan kapitalını əmtəə və xidmətlər istehsal etmək qabiliyyəti kimi başa düşür. Onun həmkarları E. Dolan və J.Lindsay bu konsepsiyaya təhsil yolu ilə və ya praktiki təcrübə vasitəsilə əldə edilən biliklər toplusu kimi yanaşırlar [5, səh. 21].

F.Neumann mədəni və etnik xüsusiyyətləri, təhsilin bütün növlərini və əsas ixtisasları insan kapitalının tərkib hissəsi kimi qəbul edir [2, səh.15].

Y..A. Korçagin insan kapitalını azalan gəlir qanununa tabe olmayan və əqli mülkiyyətə, təhsilə, elm və mədəniyyətə, iqtisadi azadlığa, sahibkarlıq mühitinə və sahibkarlıq qabiliyyətinə, əhalinin təhlükəsizliyinə və sağlamlığına investisiyalar hesabına toplanan mühüm istehsal amili hesab edir [3, səh. 9].

S.Valş, L. Torov, V. Boven, V. Kostyuk insan kapitalını ehtiyat, o cümlədən bilik, qabiliyyət, bacarıqlar toplusu kimi müəyyən edirlər [4, səh.17].

Steven Nickolas hesab edir ki, insan kapitalı işçilərin iqtisadiyyatda sahib olduqları bilik, bacarıq və təcrübəyə aiddir. Bacarıqlar iqtisadi dəyər verir, çünki bilikli işçi qüvvəsi məhsuldarlığın artmasına səbəb ola bilər. İnsan kapitalı anlayışı hər kəsin eyni bacarıq və ya biliyə malik olmadığının dərk edilməsidir.Həmçinin insanların təhsilinə sərmayə qoymaqla işin keyfiyyətini artırmaq olar [6].

İnsan kapitalı anlayışına dair yuxarıda göstərilən bütün tərifləri ümumiləşdirərək, bir neçə əsas yanaşmanı qeyd etmək olar:

- əksər iqtisadçılar insan kapitalını insanın bilik və bacarıqlarının məcmusu kimi qəbul edirlər;
- bəziləri onu iqtisadiyyatda əldə edilmiş biliklər kimi müəyyən edirlər;
- başqaları insan kapitalını formal təlim prosesində qazanılan biliklər hesab eirlər;
- digərlərinin fikrincə bu anlayışa insanların sosial, psixoloji, mədəni və etnik xüsusiyyətlərini də daxil etmək lazımdır.

İqtisadiyyatda insanın bacarıq və qabiliyyətlərinin məcmusu adətən “kapital” adlandırılsa da, fiziki və digər kapital növlərindən fərqli olaraq insan kapitalı bir sıra spesifik xüsusiyyətlərə malikdir.

Birincisi, bu, insan kapitalının daşıyıcısından ayrılmazlığıdır. Avadanlıqlardan, maşınlardan, daşınmaz əmlakdan, qiymətli kağızlardan fərqli olaraq, iyirmi birinci əsrdə insan alqı-satqı obyektinə çevrilə bilməz (bəzi idman növləri istisna olmaqla). Buna görə də, bazar yalnız əməkhaqqı şəklində insan kapitalının “icarəsi” üçün qiymətləri müəyyən edir, onun aktivləri üçün qiymətlər yoxdur. Nəticədə, bu növ kapitalın likvidliyi minimaldır.

İkincisi, insan kapitalı uzun investisiya müddəti ilə xarakterizə olunur. Bunu təhsil nümunəsi ən yaxşı şəkildə göstərir – Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil müddəti adətən 11-20 (qiyabi şöbədə 11-21) il davam edir.

Üçüncüsü, fiziki kapitalla müqayisədə insan kapitalına investisiya qoyuluşunun risk dərəcəsi daha yüksəkdir. Bu, həm də risk sığortası alətlərinin olmaması, əmək bazarı konyunkturasının dəyişməsi, eləcə də insanların yüksək mobilliyi, kreditlərin monitorinqinin yüksək xərcləri, kreditlərin qaytarılmasının uzunmüddətli olması ilə bağlıdır.

Dördüncüsü, fiziki və insan kapitalının fərqi ondan ibarətdir ki, birincinin gəlirliliyi toplandıqca yavaş-yavaş azalır, ikincisi isə əksinə, əvvəlcə əmək qabiliyyətli yaşın yuxarı həddi ilə məhdudlaşan səviyyəyə yüksəlir, sonra isə kəskin şəkildə azalır. Amma nəzərə almaq lazımdır ki, insan kapitalı təkcə pul formasında ola bilməz.

Beşincisi, insan kapitalının xidmətlərindən istifadə hüququnu alan işəgötürən hüquqa malik olan azad şəxslə təmasda olur ki, bu da əmək bazarının müxtəlifliyinə və institusional strukturlarla

doymasına gətirib çıxarır.

Beləliklə, fikrimizcə, yuxarıda göstərilənlərin hamısını ümumiləşdirərək, insan kapitalı anlayışına, onun mahiyyətini daha dolğun ifadə edən aşağıdakı tərif verilə bilər:

İnsan kapitalı – anadangəlmə və ictimai istehsal sferalarında əldə edilən, əməyin məhsuldarlığına və keyfiyyətinə təsir göstərən sağlamlıq, bilik, bacarıqlar, o cümlədən psixoloji, motivasiya sərmayələri nəticəsində qazanılan, ictimai istehsal prosesində istifadə edilən, fiziki şəxs tərəfindən toplanmış, sahibinin gəlirinin məbləğini müəyyən edən kapitaldır.

**İnsan kapitalının formalaşması və toplanması**

Müasir iqtisadiyyatda işçinin yaratdığı maddi sərvətlərin toplanmasından daha çox onun bilik və bacarıqlarının formalaşmasına və inkişafına diqqət yetirilir. Başqa sözlə, insan kapitalının yaradılması, təkrar istehsalı və istehlakına əsaslanan yeni tip iqtisadi inkişafa aparan prioritetlərin dəyişməsi baş verir.

Onu da demək olar ki, insan kapitalı, cəmiyyətin intellektual sərvəti kimi hər bir ölkə üçün onun iqtisadi yüksəlişi və beynəlxalq əmək bölgüsü sistemində rəqabət qabiliyyətinin artırılması üçün həlledici amillərdən biridir.

Bununla da razılaşmamaq olmaz, çünki kifayət qədər inkişaf etməmiş insan kapitalı heç bir yeniliyi qəbul etmir. Problemlər, məsələn, ölkə başqa iqtisadi sistemə, başqa, daha yüksək texnoloji səviyyəyə keçəndə yaranır. Belə şəraitdə inkişaf etməmiş insan kapitalı daha mürəkkəb səviyyəli yeni problemlərin həlli üçün yararsız olur və iqtisadiyyatın bir növ əyləcinə çevrilir.

İnsan kapitalının toplanması istehsal fəaliyyəti zamanı onun dəyərinin artırılması, yeni vərdişlərin, konkret qabiliyyətlərin əldə edilməsi, qoyulmuş vəsaitin gələcəkdə qaytarılması üçün işçinin ixtisasının yüksəldilməsi prosesidir. İnsan kapitalının toplanması prosesləri onun fəaliyyət göstərdiyi bütün dövr ərzində baş verir.

“İnsan kapitalının yığılması” anlayışının “insan kapitalı” kateqoriyasının özünün şərhləri qədər çox tərifi vardır. Onları nəzərdən keçirməyə başlamazdan əvvəl insan kapitalının “formalaşması” və “toplanması” anlayışlarını bir-birindən ayırmaq məqsədəuyğun olardı.

İnsan kapitalının formalaşması daha çox pulla deyil, işçilərin təliminə ictimai vaxt və əməyin xərclənməsi ilə təmsil olunan insan qabiliyyətlərinə investisiyalar vasitəsilə həyata keçirilir. Yəni, nəzərdən keçirilən kapital növünün formalaşması prosesi əmək fəaliyyətinə başlamazdan əvvəl baş verir.

İnsan kapitalının toplanması istehsal prosesində artıq formalaşmış insan kapitalına münasibətdə baş verir. İnsan kapitalının toplanması peşə fəaliyyəti prosesində bu növ kapitalın dəyərinin artırılması, iqtisadi məqsədəuyğunluğu qorumaqla işçilərin bilik və bacarıqlarının inkişafı, yəni qoyulmuş vəsaitlərin geri qaytarılması imkanlarının təmin edilməsi üçün davamlı bir prosesdir.

İnsan kapitalının toplanmasının xərc tərəfi təlim, təkmilləşdirmə, təhsil və sağlamlığın qorunması xərcləridir. Gəlirli tərəfi - insan kapitalının dəyərinin artmasıdır.

Makroiqtisadi aspektdə insan kapitalının inkişafı amillərini aşağıdakı qruplara bölmək olar:

- makroiqtisadi;
- istehsal-iqtisadi;
- innovativ;
- sosial;
- milli-dövlət;
- demoqrafik;
- institusional;
- ekoloji;
- beynəlxalq;
- ideoloji.

Makroiqtisadi amillərə əhalinin real gəlirləri, inflyasiya səviyyəsi, adambaşına düşən ÜDM, milli valyutanın alıcılıq qabiliyyəti, işsizlik səviyyəsi, iqtisadi azadlıq səviyyəsi və s. kimi makroiqtisadi göstəricilər daxildir.

İstehsal-iqtisadi amillərə aşağıdakılar daxildir: əmək məhsuldarlığının səviyyəsi və onun dinamikası, ildə işlənmiş vaxtın miqdarı, əməkhaqqının səviyyəsi, müəssisənin texnoloji avadanlıqları, ixtisasartırma şəraiti və s.

İnnovasiya amilləri - elm və elmi-tədqiqat və təkmilləşdirmə sahəsində çalışanların sayı, elm və elmi-tədqiqat işlərinə ayrılan xərclərin ÜDM-də payı, patentlərin, ixtiraların, müəllif hüquqlarının, yeni texnologiyaların nümunələridir və s.

Sosial amillərə məşğul və işsizlərin sayı, vətəndaşların təhsil səviyyəsi, işçi qüvvəsinin peşə və ixtisas strukturu, səhiyyə və mədəniyyətin vəziyyəti və s.aiddir.

Milli-dövlət amillərinə: dövlətin innovasiya siyasəti, sahibkarlığa dəstək səviyyəsi, ictimai rifahın təmin edilməsi siyasəti, ekoloji siyasət və s. daxildir.

Demoqrafik amillər: əhalinin sayı, orta ömür uzunluğu, əhalinin təbii artım tempi, ölüm, miqrasiya və s.

İnstitusional amillərə aşağıdakılar aid edilə bilər: həmkarlar ittifaqlarının, işəgötürənlər ittifaqlarının inkişaf səviyyəsi, birjaların, reklam və işə qəbul agentliklərinin inkişaf səviyyəsi.

Ətraf mühit amilləri bunlardır: qidanın, suyun keyfiyyəti, ətraf mühit, rekreasiya və təbii iqlim şəraiti.

İdeoloji: cəmiyyətdəki sosial dəyərlər və normalar, milli prioritetlərdir.

Beynəlxalq amillər: ölkənin beynəlxalq məkana inteqrasiya dərəcəsi, xarici investisiyaların səviyyəsi, ölkədə transmilli korporasiyaların olması və s. ilə əlaqədardır.

Beləliklə, deyə bilərik ki, insan kapitalının formalaşması, toplanması və inkişafı problemi həm ayrı-ayrı işçi və ya müəssisə üçün, həm də milli iqtisadiyyat üçün vacibdir.

İnsan kapitalının formalaşdırılması metodologiyası məzmunun, münasibətlərdə daxili strukturun və qarşılıqlı asılılığın aydın, dəqiq müəyyənləşdirilməsini tələb edir.

Bu yanaşmadan çıxış etsək, deyə bilərik ki, insan kapitalı strukturunun daxili məntiqi aşağıdakı elementlərlə müəyyən edilir:

- sağlamlıq və sağlam həyat tərzi kapitalı;
- təhsil kapitalı (ümumi və xüsusi biliklər);
- iş yerində kapital hazırlığı (ixtisas, bacarıq, istehsal təcrübəsi);
- elmi kapital (ixtiralar, innovasiyalar, tədqiqatlar);
- mədəniyyət kapitalı (təhsil, özünütəhsil, özünü inkişaf);
- iqtisadi əhəmiyyətli məlumatlara sahib olmaq (qiymətlər və gəlirlər haqqında məlumatlılıq);
- miqrasiya kapitalı (işçilərin mobilliyi);
- iqtisadi fəaliyyətin motivasiyası.

Ehtiyaclarını ödəmək, əmtəə və ya xidmət istehsalı üçün insan intellektual və fiziki cəhətdən inkişaf edə, istehsal qabiliyyətlərini inkişaf etdirə, yəni insan kapitalının bütün komponentləri toplana və istifadə edilə bilər.

İnsan kapitalının formalaşması və toplanması üçün onun inkişafına istənilən resursları (maddi, təbii, mənəvi) yatırmaq, eləcə də hər hansı hərəkəti həyata keçirmək, onun formalaşması və toplanması üzrə istənilən funksiyaları yerinə yetirmək lazımdır. Bu, insan kapitalına investisiyanın ikili tərifini izah edir. Bir tərəfdən investisiyalar insan kapitalının istehsalına resurs investisiyalarıdır, bu investisiyalara fiziki kapital, insan kapitalı və təbii resurslar daxildir. Digər tərəfdən, investisiya fəaliyyət formasıdır, insan kapitalının yaradılması prosesi onun tərkib hissələridir.

Buradan belə nəticəyə gələ bilərik ki, investisiyalar iki cür - vəsait və resursların qoyuluşu kimi və müəyyən fəaliyyət növləri olaraq nəzərdən keçirilə bilər. Ən ümumi mənada, pul və ya başqa formada qiymətləndirilə bilən, məqsədəuyğun olan, yəni əmək məhsuldarlığının artmasına və insan gəlirinin artmasına töhfə verən şəxsə qoyulan bütün investisiya növləri insan kapitalına investisiyadır. Digər tərəfdən, məktəb təhsili, iş yerində təlim, sağlamlığın möhkəmləndirilməsi və iqtisadiyyata dair məlumat ehtiyatının artırılması kimi əsas fəaliyyət formaları da insan kapitalını inkişaf etdirən investisiya fəaliyyəti kimi qeyd edilə bilər.

İnsan kapitalına qoyulan investisiyalar onları digər investisiya növlərindən fərqləndirən bir sıra

xüsusiyyətlərə malikdir.

1. İnsan kapitalına qoyulan sərmayənin gəlirliliyi birbaşa onun daşıyıcısının ömrünün uzunluğundan asılıdır.

2. İnsan kapitalı təkcə fiziki və mənəvi aşınmaya məruz qalmır, həm də toplanmağa və çoxalmağa qadirdir. İnsan kapitalının köhnəlməsi, birincisi, insan orqanizminin təbii aşınma dərəcəsi və ona xas olan psixo-fizioloji funksiyaları ilə, ikincisi, biliklərin, alınan təhsilin dəyərinin köhnəlməsi və ya maddi vəziyyətindəki dəyişikliklər nəticəsində mənəvi (iqtisadi) aşınma dərəcəsi ilə müəyyən edilir. İnsan kapitalının toplanması işçinin vaxtaşırı yenidən hazırlanması və onun istehsalat təcrübəsinin toplanması, daimi sağlamlığının qorunması prosesində həyata keçirilir. Bu proseslər davamlı olaraq aparılırsa, insan kapitalından istifadə olunduqca onun keyfiyyət və kəmiyyət (həcm, dəyər) xüsusiyyətləri yaxşılaşar və artar.

3. İnsan kapitalı toplandıqca onun rentabelliyi müəyyən həddə qədər yüksəlir, aktiv əmək fəaliyyətinin yuxarı həddi (aktiv əmək yaşı) ilə məhdudlaşır, sonra isə kəskin şəkildə azalır.

4. İnsanlara qoyulan bütün investisiyalar insan kapitalına qoyulan investisiyalar kimi qəbul oluna bilməz, ancaq sosial cəhətdən səmərəli və iqtisadi cəhətdən zəruri olan investisiyalar insan kapitalına investisiyalar kimi qəbul edilə bilər. Məsələn, cinayət fəaliyyəti ilə bağlı xərclər insan kapitalına qoyulan investisiyalar deyil, çünki onlar cəmiyyətə zərərlidir.

5. Tarixi, milli, mədəni xüsusiyyətlərə və ənənələrə görə insana qoyulan investisiyaların xarakteri və növləri müxtəlifdir. Uşaqların təhsil səviyyəsi və peşə seçimi əsasən ailə ənənələrindən və valideynlərin təhsil səviyyəsindən asılıdır.

6. Kapitalın digər müxtəlif formalarına qoyulan investisiyalarla müqayisədə insan kapitalına qoyulan investisiyalar həm fərdin, həm də bütün cəmiyyətin nöqteyi-nəzərindən ən faydalıdır.

7. İnsan kapitalına investisiyalar, hətta dolayı göstəricilərə (müəllim maaşına, uşaq baxıcısı xərclərinin səviyyəsinə və s.) də təsir göstərə bilər.

Beləliklə, hesab edirik ki, insan kapitalı obyektiv olaraq insana, onun sağlamlığına, intellektinə, mədəniyyətinə ömür boyu sərmayə qoyuluşu nəticəsində toplanan sağlamlıq, bilik səviyyəsi, peşə təcrübəsi, motivləri, bilikləri, bacarıqları, iqtisadi əhəmiyyətli məlumatların ölçüsü ilə xarakterizə olunur.

İnsan kapitalı istehsal amilləri sistemində əsas və həlledici rol oynayır, onun formalaşması və istifadəsi ilə bağlı münasibətlər isə bazar münasibətləri sistemində aparıcı yer tutur.

20-ci əsrin sonu və XXI əsrin əvvəllərində sosial-iqtisadi inkişaf insan amilinin artan rolu ilə xarakterizə olunur. İqtisadiyyatın inkişafının sənaye mərhələsində olduğu dövrdə insan sərmayələri ən vaciblərdən birinə çevrilmişdir, lakin onların əhəmiyyəti post-sənaye iqtisadiyyatına keçidlə xüsusilə artmışdır. Müasir iqtisadiyyat, əsas tikinti materialı kimi təbii sərvətlərdən və maşınlardan deyil, insanların əldə etdiyi bacarıqlardan istifadəyə davamlı və daim sürətlənən keçid ilə xarakterizə olunur. İnsan kapitalı nəinki daha qiymətli olmuşdur, həm də təbii ehtiyatların və mexanizmlərin nisbi əhəmiyyətini getdikcə azaldır. Bu yeni rol onunla bağlıdır ki, yalnız onlar digər iqtisadi resursları mal və xidmətlərə çevirə bilirlər.

Bu, həm insan investisiyalarının özü, həm də onların səmərəliliyinin müxtəlif aspektləri, insan kapitalının formalaşmasında bazar və qeyri-bazar investisiyalarının rolu üçün daha dəqiq alətlər toplusunun hazırlanmasının aktuallığını nəzərdə tutur.

Bazar və qeyri-bazar investisiyalarının insan kapitalında rolu iqtisadiyyatın sosiallaşma dərəcəsi ilə qiymətləndirilə bilər. Azərbaycan Respublikası Konstitusiyasının on altıncı maddəsinə uyğun olaraq, Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsinin qayğısına qalır [1]. Azərbaycanda bu konstitusiya normasına birbaşa zidd olan iqtisadi siyasətin və iqtisadi islahatların vektorunu konkret sübut etməyə ehtiyac yoxdur.

İqtisadiyyatın sosiallaşma dərəcəsi dövlətin insan kapitalının inkişafında nə qədər maraqlı olduğunu, dövlət tərəfindən insan kapitalına qoyulan investisiyaların hansı nisbətdə olduğunu, yəni insan kapitalında qeyri-bazar investisiyalarının rolunu göstərir. Bazar iqtisadiyyatı insan

kapitalına bazar (özəl) sərmayələri ilk sıraya çəkilir. Bununla belə, qeyri-bazar (dövlət) investisiyalarının rolunu qiymətləndirməmək olmaz, çünki onlar özlərinə qayğı göstərə bilməyən konkret sosial qruplara (pensiyaçılar, əlillər, işsizlər və s.) dəstək verir; onlar əhalinin bütün digər qruplarının insan kapitalına qoyulan investisiyaların lazımi səviyyədə tənzimlənməsinə kömək edənlərdir. Almaniya və Yaponiya kimi inkişaf etmiş ölkələrdə iqtisadiyyatın sosiallaşmasının təhlili bunu sübut edir. İqtisadiyyatın nə qədər inkişaf etməsindən asılı olmayaraq, əsas sosial göstəricilər dövlət tərəfindən tənzimlənir və müəyyən edilir. Axı məhz ona görə ki, dövlət bu ölkələrdə iqtisadiyyatı sosialyönümlü edir və onun yüksək inkişaf səviyyəsi var və iqtisadi artımın sabitliyi təmin edilir. Bunu bir neçə il ərzində dünya ölkələrinin iqtisadi və sosial həyatının müxtəlif aspektlərini xarakterizə edən müqayisəli indeks göstəricilərinin hesablanması və insan inkişafının inteqral indeksinin (İİİ) müəyyən edilməsi sübut edir. Onun dəyəri 0-dan 1-ə qədər dəyişir. İİİ-nin dəyəri insan inkişafının dərəcəsini əks etdirir və 1-ə nə qədər yaxındırsa, inkişaf da bir o qədər yüksək olur.

Nəzərə almaq lazımdır ki, insan kapitalının səmərəli təkrar istehsalı və istifadəsi problemlərinin həlli ölkənin sosial-iqtisadi inkişafının innovativ yönümlülüyünün güclənməsinə imkan yaradır. İnnovativ iqtisadiyyat növü yeni, innovativ tipli müvafiq insan kapitalını tələb edir.

Qeyd etmək lazımdır ki,insanın yaradıcılıq qabiliyyətləri onun innovativ potensialının əsasını təşkil edir və digər resurslardan fərqli olaraq, tükənməzdir. İnsanlar yaradıcı fərdlər kimi aşağıdakı fərqli xüsusiyyətlərə malikdirlər:

- məqsədyönlülük;
- inamlılıq;
- təfəkkürün miqyası və perspektivi;
- hər hansı bir fikrə həssaslıq;
- pulsuz planlaşdırılmamış tədqiqatlara üstünlük verən təşəbbüs;
- tənqidi təfəkkür əsasən yaradıcı ixtiraçılara, alimlərə, mühəndislərə, istehsalat menecerlərinə, sahibkarlara məxsusdur.

Müasir Azərbaycanda ən kəskin problem, elm və yüksək texnologiyalı biznes sahəsində uğurlu fəaliyyət üçün bilik, bacarıq, qabiliyyət və şəxsi keyfiyyətlərin unikal və səmərəli birləşməsinə görə çevik, innovasiyalar yarada və tətbiq etməyə qadir, yüksək peşəkarlığa malik innovativ şəxslərin kifayət qədər olmamasıdır. Bundan əlavə, innovativ əmək potensialından istifadə və inkişaf etdirmək, innovativ şəxslərin əmək fəaliyyətinə səmərəli cəlb edilməsi imkanları məhduddur. Bu, təhsil sisteminin keyfiyyətinin qənaətbəxş olmaması, məşğulluğun səmərəsiz strukturu, kadrların sərbəst hərəkəti ilə iqtisadiyyatın mütərəqqi texnoloji strukturunun uyğunsuzluğu ilə bağlıdır.

Bu baxımdan innovativ əmək potensialının inkişafının idarə edilməsi üçün prinsipial olaraq yeni mexanizmin yaradılması zərurəti xüsusi aktuallıq kəsb edir. Bu mexanizm elmin və təhsilin prioritet inkişafını təmin edən əlverişli innovasiya mühitinin formalaşdırılmasına, iqtisadiyyatda innovativ əməyin fəal stimullaşdırılması əsasında daxili artım mənbələrinin yaradılmasına yönəldilməlidir.

Azərbaycan iqtisadiyyatının modernləşdirilməsi, onu innovativ inkişaf növünə köçürülməsi vəzifəsi bütün səviyyələrdə - işçilərdən tutmuş yeniliklərə qadir və qəbul edən yüksək ixtisaslı mütəxəssislərə qədər yeni kadr növlərinin hazırlanması probleminin həllini zərurətə çevirir. Bu məqsədlər üçün peşə təhsili verən müəssisələr arasında münasibətlərin qurulması, yeni fəaliyyət növlərinin və bazar seqmentlərinin formalaşması məntiqi nəzərə alınmaqla elm, təhsil və istehsalın inteqrasiyasının yeni modellərinin işlənib hazırlanması üçün güclü institusional baza lazımdır.

Fikrimizcə, tədqiqat və tədris mərkəzlərinin (TTM) yaradılması universitetlərdə qabaqcıl tədqiqat və təhsilin inteqrasiyası üzrə beynəlxalq təcrübənin tətbiqinə, gənclərin elmi tədqiqatlara geniş cəlb edilməsinə töhfə verə bilər.

Bu məqsədə çatmaq üçün aşağıdakı vəzifələri həll etmək lazımdır:

- universitetlərin biznes mühiti ilə əlaqələrinin qurulması;
- əlavə təhsil xidmətlərinin kommersiyalaşdırılması;

- yeni təhsil xidmətlərinin metodiki təminatının işlənib hazırlanması;
- tədris prosesinə müasir proqram təminatının tətbiqi;
- innovativ texnologiyaların mübadiləsi üçün struktur bölmələrin yaradılması;
- məsləhətlərin informasiya bazasının inkişafı.

Hesab edirik ki, TTM yaradılması insan kapitalının formalaşması və toplanması prosesinin daha səmərəli həyata keçirilməsinə imkan və zəmin yarada bilər.

**Müasir iqtisadiyyatda insan kapitalının rolu**

İnsan kapitalı ilə iqtisadi artım arasında güclü əlaqə vardır, ona görə də o, ölkə iqtisadiyyatının inkişafına kömək edə bilər. İnsanlar istehsala müxtəlif bacarıq və biliklərlə gəlirlər və bu qabiliyyətlərini istehsal prosesində tətbiq edirlər.

Araşdırmalar göstərir ki, bir çox ölkələr üçün sürətlənmiş artımın və genişlənmənin əsas səbəbi insan kapitalıdır. Bu, iş və həyat tərzi üçün ən yaxşı vəziyyətləri təmin etmək məqsədi ilə həmin ölkələrə ən yaxşı üstünlükləri verir.

İnkişaf üçün sabit mühitin yaradılmasında mühüm üstünlük ölkənin səhiyyə, elm, idarəetmə, təhsil və digər sahələrdə genişlənmiş yüksək keyfiyyətli insan kapitalına malik olmasıdır. Burada insan kapitalının əsas komponentləri mütləq insandır, lakin hazırda əsas komponent yaradıcı, savadlı, təşəbbüskar, yüksək peşəkarlığa malik insandır.

İqtisadiyyatda insan kapitalı milli sərvətin mərkəzi hissəsini idarə edir. Bu problemlə məşğul olan bütün tədqiqatçılar hesab edirlər ki, insan kapitalı cəmiyyətin ən mühüm resursu, təbiətdən və sərvətdən daha güclüdür. Əksər ölkələrdə insan kapitalı iqtisadiyyatın inkişaf tempini, iqtisadi, texnoloji və elmi tərəqqini müəyyən edir.

Ümumi şəkildə nəzərdən keçirsək, demək olar ki, insan kapitalının müasir iqtisadiyyatda rolu əsasən aşağıdakılardan ibarətdir. İnsan kapitalı:

1. İxtiralara, innovasiyalara və texnoloji təkmilləşdirmələrə səbəb olur.

İnsan kapitalı istehsal və digər əlaqəli fəaliyyət sahələrində daha çox yeniliklərə səbəb olur. Yeniliklər isə daha çox inkişafa, böyüməyə imkan və zəmin yaradır. İnsan kapitalı həm də yeni texnologiyaların mənimsənilməsi qabiliyyətini yaradır.

2. Fiziki kapitalın yüksək məhsuldarlığını təmin edir.

İnsan kapitalı əmək məhsuldarlığını artırır.Təlim keçmiş işçilər fiziki kapitaldan (maşınlardan, avadanlıqlardan və s.) daha səmərəli istifadə edirlər.

3. Hasilatı artırır.

İnsan kapitalının formalaşması istehsalın səviyyəsini yüksəldir və ÜDM-i çoxaltmaqla iqtisadi artıma gətirib çıxarır. Bilikli və bacarıqlı işçilər əllərində olan resurslardan daha yaxşı istifadə edə bilirlər.

4. Yüksək iştirak dərəcəsinə və bərabərliyə imkan yaradır.

İşçi qüvvəsi istehsalın inkişafını sürətləndirməklə yeni iş yerlərinin yaradılmasına zəmin yaradır və beləliklə, insan kapitalının formalaşmasına və məşğulluğun səviyyəsinin yüksəldilməsinə səbəb olur. Bu, işçi qüvvəsində yüksək iştirak nisbətinə gətirib çıxarır. Kasıblarla varlılar arasındakı fərqi azaldır.

5. Həyat keyfiyyətini yaxşılaşdırır.

Həyat keyfiyyəti gəlir və sağlamlıqla ifadə edilir. Gəlir və sağlamlıq təhsil səviyyəsindən, biliklərin, bacarıqların formalaşmasından və s. bilavasitə asılıdır. İnsan kapitalının formalaşması bu bacarıqları artırır və insanların həyat keyfiyyətini yaxşılaşdırır. Əhalinin həyatının daha keyfiyyətli olması isə daha çox iqtisadi artım deməkdir.

Hesab edirik ki, insan kapitalının müasir iqtisadiyyatın inkişafında yuxarıda qeyd edilən və digər rolunu nəzərə alaraq onun formalaşması və toplanması üçün həm dövlət səviyyəsində, həm də müəssisələr səviyyəsində investisiya sərfinin artırılması məqsədəuyğun olardı.

*Nəticə*

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, həm hər bir şəxsin rifah halının yaxşılaşması, həm də bütövlükdə ölkə iqtisadiyyatının inkişafı insan kapitalının inkişafından bilavasitə asılıdır. Ona görə də, insan kapitalının formalaşması və toplanması həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrin iqtisadi inkişafı üçün əsas şərtlərdən biri hesab edilməlidir.

Araşdırmalar göstərir ki, müasir şəraitdə iqtisadiyyatda işçinin yaratdığı maddi sərvətlərin toplanmasından daha çox onun bilik və bacarıqlarının formalaşmasına, toplanmasına və inkişafına diqqət yetirilir. İnsan kapitalı ilə ölkənin iqtisadi inkişafı arasında güclü əlaqə vardır, insan kapitalının formalaşması və toplanması uzun sürən proses olsa da, onun səmərəli təkrar istehsalı və istifadəsi problemlərinin həlli sonda ölkənin sosial-iqtisadi inkişafının innovativ yönümlülüyünün güclənməsinə imkan yaradır. Ona görə də, insan kapitalının inkişafı həm dövlətin, həm də hər bir istehsal müəssisəsinin əsas vəzifələrindən biri hesab edilməlidir. Fikrimizcə, yuxarıda irəli sürülən təklif və tövsiyələrin həyata keçirilməsi insan kapitalının formalaşmasına, toplanmasına və səmərəli istifadəsinə imkan və zəmin yarada bilər.

**ƏDƏBİYYAT**


1. Azərbaycan Respublikasının Konstitusiyası. https://e-qanun.az/framework/897.
2. Ильинский, И. В. Инвестиции в будущее: образование в инновационном воспроизводстве. СПб.: Изд. СПбУЭФ, 2011. 471 с.
3. Корчагин, Ю.А. Человеческий капитал как фактор роста и развития или стагнации, рецессии и деградации: Монография. Воронеж: ЦИРЭ, 2016. 252 с.
4. Устинова, К.А. Человеческий капитал в инновационной экономике, монография / К.А. Устинова, Е.С. Губанова, Г.В. Леонидова. – Вологда: Институт социально-экономического развития территорий РАН, 2015. – 195 с.
5. Хмелева, Г.А. Человеческий капитал как условие формирования инновационной экономики региона: монография. Самара: САГМУ, 2012.168 с.
6. Steven Nickolas.What Is the Relationship Between Human Capital and Economic Growth? https://www.investopedia.com/ask/answers/032415/what-relationship-between-human-capital-and-economic-growth.asp
7. MARİA JESUS FREIRE-SEREN. HUMAN CAPITAL ACCUMULATION AND ECONOMIC GROWTH. https://www.redalyc.org/pdf/173/17325306.pdf


***Тейюб Гани оглы Алиев***
***доцент АГУНП,***

***Шамс Тейюб кызы Алиева***
***доцент АГУНП***

**Накопление человеческого капитала и его роль в современной экономике**

*Резюме*

**Цель исследования** – оценить роль человеческого капитала в условиях современной экономики и подготовить предложения по его более эффективному использованию.

**Методология исследования** – системный подход, экспертный метод, методы комплексного анализа.

**Результаты исследования** - были проанализированы процецы формирование и накопление человеческого капитала в условиях современной экономики, его роль в ускорении экономического развития и даны соответствующие рекомендации по совершенствованию использования человеческого капитала.

**Практическая значимость исследования** - результаты исследования и выдвинутые предложения и рекомендации могут позволить качественной оценке человеческого

капитала предприятия и более эффективному использованию имеющиеся человеческих ресурсов.

**Оригинальность и научная новизна исследования** - обоснована необходимость расходования соответствующих инвестиционных затрат на формирование и накопление человеческого капитала в условиях современной экономики, показаны конкретные пути использования человеческого капитала в экономике.

***Ключевые слова: накопление человеческого капитала, экономика, роль, предложение, использование.***

***Teyyub Gani Aliyev***
***ass. prof., ASOIU***

***Shams Teyyub Aliyeva***
***ass. prof., ASOIU***

## Accumulation of human capital and its role in the modern economy

***Summary***

**The purpose of the study** - is to assess the role of human capital in the economy in modern conditions and to prepare proposals for its more effective use.

**Research methodology** – systematic approach, expert method, methods of complex analysis.

**The results of the research**- the processes of formation and accumulation of human capital in the modern economy, its role in accelerating economic development were analyzed and appropriate recommendations were given to improve the use of human capital.

**The practical significance of the study** - the results of the study and the proposed proposals and recommendations can allow a qualitative assessment of the human capital of the enterprise and more efficient use of existing human resources.

**The originality and scientific novelty of the research** - the need to spend appropriate investment costs on the formation and accumulation of human capital in the modern economy is substantiated, specific ways of using human capital in the economy are shown.

***Key words: accumulation of human capital, economics, role, supply, use.***